# Heydər Əliyev Azərbaycançılıq ideyasının müəllifidir



Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən parlaq sima olaraq xalqımız, habelə bütün dünya tərəfindən qəbul edilir və qiymətləndirilir.

Müstəqil Azərbaycan dövlətinin banisi, yaradıcısı və qurucusu olan Heydər Əliyev neçə on illər öz şüurlu həyatını Azərbaycanın tərəqqisinə və çiçəklənməsinə, beynəlxalq aləmdə tanınmasına, bütün dünya azərbaycanlılarının hüquq və azadlıqlarının qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasına, ölkə iqtisadiyyatının daim dinamik inkişaf etdirilməsinə, Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlət qurulmasına sərf etmişdir. Bu gün tamamilə haqlı olaraq ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycanın, Azərbaycançılığın, dövlət quruculuğunun simvolu kimi tanınır.

Azərbaycan xalqı ötən əsrin əvvəllərində qazandığı dövlət müstəqilliyini 1920-ci ildəki soyqırımından sonra yalnız XX əsrin axırlarında bərpa etməsinə baxmayaraq, əslində bu tarixi hadisənin təməli Heydər Əliyev tərəfindən hələ 1969-cu ildə respublikanın siyasi rəhbərliyinə gələrkən qoyulmuşdur. Məhz o illərdə Azərbaycanda dövlət quruculuğunun ilkin təməli görünməkdə idi.

Tarixi xronologiyanın inkişafı baxımından həyat artıq sübut etmişdir ki, Heydər Əliyevin Azərbayana ilk dəfə rəhbərlik dövrünü əhatə edən 1969-1982-ci illər ümumiyyətlə ölkəmizin inkişafının intibah dövrü olmuşdur. Həqiqətən də əgər həmin dövürdə Azərbaycan istər sosial-iqtisadi, istərsə də ictimai-mədəni sahələrdə dinamik inkişaf yolu keçməsəydi, demokratik idarəetmənin ilk ruşeymləri yaradılmasaydı, xalqımızın milli-mənəvi dəyərlərinə, bütövlükdə Azərbaycançılığa qayıdışın əsası qoyulub inkişaf etdirilməsəydi heç şübhəsiz bugünkü müstəqilliyimiz, müstəqil dövlət quruculuğumuz həyati reallığa çevrilməzdi.

Heydər Əliyevin Azərbaycanda azərbaycançılığın qorunub saxlanması və inkişaf etdirilməsi sahəsində həyata keçirdiyi xəttin bir mərhələsi də 1982—1987-ci illərlə bağlıdır. Böyük öndərin sözügedən illərdə keçmiş SSRİ-nin siyasi rəhbərliyində ali vəzifələrdən birini tutması da onun fəaliyyətinin milli zəmininə xüsusi çalar gətirmiş, doğma xalqının müqəddəratı, gələcək taleyi onu daim düşündürmüş, Azərbaycanı müstəqil dövlətə çevirmək ideyası bu qüdrətli dövlət xadiminin daim həyat amalı olmuşdur. Vətəndən uzaqda yaşamasına, ali dövlət vəzifəsini icra etməsinə baxmayaraq, Heydər Əliyev daim Azərbaycanla, doğma xalqı ilə qırılmaz tellərlə bağlı olmuşdur. Sovetlər birliyi tərkibində respublikamızı bu birliyə daxil olan ölkələrin sırasında daim öndə görmək istəyən Heydər Əliyev həmişə Azərbaycanın sosial-iqtisadi, ictimai-mədəni cəhətdən tərəqqisini diqqət mərkəzində saxlayırdı.

Ümummilli liderimiz həmin dövrdə daha effektiv şəkildə azərbaycançılıq sahəsində qlobal işlər görmüşdür.

Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması sahəsində Heydər Əliyevin gördüyü işlər xüsusi əhəmiyyət kəsb etmişdir. Respublikamızda elm və təhsil sisteminin inkişafı da məhz o dahi şəxsiyyətin adı ilə bağlıdır.

Ümummilli liderimiz Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin 49-cu sessiyasının tribunasında Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etdi. Bu ölkənin sülhsevər, humanist, demokratik dəyərləri üstün tutduğunu sübuta yetirdi. Bunun ardınca ümummilli liderimizin şəxsi rəhbərliyi altında 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlandı və ümumxalq səsverməsi yolu ilə həmin ali qanun həyata vəsiqə qazandı.

Heydər Əliyevin azərbaycançılıq sahəsində gördüyü qlobal işlər içərsində 18 iyun 2001-ci ildə imzalanmış “Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında” fərmanı xüsusi qeyd etmək lazımdır. Bunun ardınca 2002-ci ildə isə Azərbaycan dili haqqında qanun qəbul etmişdir.

Heydər Əliyev deyirdi: “Dilimiz çox zəngin və ahəngdar bir dildir, dərin köklərə malikdir. Şəxsən mən öz ana dilimdə—Azərbaycan dilində danışmağımla fəxr edirəm.”

Azərbaycançılıq ideyalarının daha da inkişaf etdirilməsi sahəsində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin də gördüyü işlər təqdirəlayiqdir. Belə ki, 2004-cü ildə cənab İlham Əliyevin rəhbərliyi altında klassik və müasir Azərbaycan ədəbiyyatının nümunələrinin latın qrafikalı Azərbaycan əlifbası ilə çapı və onun nüsxələrinin regionlara hədiyyə göndərilməsi buna əyani sübutdur.

Respublikamız Heydər Əliyev ideyalarının ardıcıl davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında demokratik inkişaf yolu ilə inamla irəliləyir. Bu gün Azərbaycan dövlətçiliyi günü-gündən güclənməkdədir.

Azərbaycanın dünəni də, bu günü də, sabahı da Heydər Əliyevin ölməz adı və əbədi yaşayan əməlləri ilə bağlıdır. Heydər Əliyevin əziz və unudulmaz xatirəsi qarşısında borcumuz və vəzifələrimiz möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək Heydər Əliyev dühasının bəhrəsi olan qüdrətli, müstəqil Azərbaycan dövlətini qorumaq və onu daha da inkişaf etdirməkdir.

**Oqtay MƏMMƏDOV.**

# Azərbaycan Prezidenti İlham Əliyevə «Jurnalistlərin dostu» mükafatı təqdim edilmişdir

(Əvvəli 1-ci səhifədə).

Digər tərəfdən cənab Prezident qarşıya məqsəd qoyub ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Ona görə də media ilə bağlı olan məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır.

Ümumiyyətlə, cənab Prezident geniş və çox əhatəli giriş nitqində müstəqil dövlətimizin keçdiyi şərəfli yola nəzər salmış, qarşıda duran vəzifələrin konturlarını açıqlamış, problemlərə, onların dövlət maraqları müstəvisində həlli yollarına toxunmuş, bu məsələlərdə reallıq nöqteyi-nəzərindən azad medianın xüsusi rolu və əhəmiyyəti olduğunu vurğulamışdır.

Mərasimdə əməkdar jurnalist, Milli Məclisn deputatı Aqil Abbas, əməkdar jurnalist, professor Şirməmməd Hüseynov, Azərbaycan Mətbuat Şurasının nəzdində fəaliyyət göstərən Ahıl Jurnalistlər Məclisinin sədri Yusif Kərimov, «Yeni Müsavat» qəzetinin baş redaktoru Rauf Arifoğlu, «525-ci qəzet»in baş redaktoru Rəşad Məcid çıxış edərək azad Azərbaycan mediasının keçdiyi çətin və şərəfli yollardan, 22 illik müstəqillik məkanında bütün sahələrdə əldə edilən uğurlardan, qarşıya çıxan problemlərdən, buraxılan nöqsanlardan, bu nöqsanların aradan qaldırılması yollarından danışmışlar.

Cənab Prezident yekun nitqində hər bir çıxışa öz münasibətini bildirdi, qaldırılan məsələlərin aktual və vacib olduğunu qeyd etdi, eyni zamanda siyasi baxışların müxtəlifliyinə toxunmaqla, siyasi mübarizənin sivil qaydada aparılmasını arzuladı.

Sonda cənab Prezident mərasim iştirakçıları ilə xatirə şəkli çəkdirmişdir.

**Nadir ATAKİŞİYEV.**

## *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN DEKABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Məmmədağalı kəndi | 03.12.2013 | Kənd məktəbi, saat $15^{00}$ |
| Vəndam qəsəbəsi | 10.12.2013 | Mədəniyyət evi, saat $11^{00}$ |
| Bəyli kəndi | 17.12.2013 | İcra nümayəndəliyi, saat $11^{00}$ |
| Sirt Yengicə kəndi | 24.12.2013 | Bələdiyyə idarəsi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.